№ 29 (972) 20-26 iyul 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# LATVİYA VƏ AZƏRBAYCAN STRATEJİ TƏRƏFDAŞDIRLAR




Azərbaycan Respublikası Prezidenti İlham Əliyev iyulun 17-də Latviyada rəsmi səfərdə olmuşdur.

İyulun 17-də Riqada rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin təkbətək və geniş tərkibdə görüşləri olub.

Görüşlərdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilmiş, Azərbaycan Prezidentinin Latviyaya rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanmışdır. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin hazırkı vəziyyəti, inkişaf perspektivləri haqqında fikir mübadiləsi aparıldı, bu əlaqələrin daha da genişləndirilməsi imkanları müzakirə edilmişdir.

Görüşlərdə həmçinin, ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğu bildirilmiş, Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində, o cümlədən Şərq-Qərb, Şimal-Cənub dəhlizlərində, Asiya ilə Avropa arasında yükdaşımalarda önəmli rolu qeyd edilmişdir. Dövlətimizin başçısı Azərbaycanın beynəlxalq nəqliyyat əməkdaşlığı sahəsində gördüyü işlərdən danışmışdır.

Həmin gün sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Latviya Respublikasının Prezidenti Raymonds Veyonis və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.

* * * * *

İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Latviya Respublikasının Seymində olub.

* * * * *

İyulun 17-də Riqada Latviya-Azərbaycan biznes forumu keçirilib.

**Prezident İlham Əliyev biznes forumda çıxış etmişdir. O, demişdir:**

- Mənim səfərim ikitərəfli münasibətlərimizin inkişafında çox mühüm addımdır. Bu gündən etibarən Latviya və Azərbaycan strateji tərəfdaş hesab olunurlar. Bu gün biz ölkələrimiz arasında strateji tərəfdaşlıq üzrə Birgə Bəyannaməni imzaladıq. Bu, çox yüksək səviyyəli əməkdaşlıqdır və bəyannamədə bir çox sahələr, o, cümlədən iqtisadi və ticari əməkdaşlıq əhatə olunur. Bilirəm, biznes forum zamanı bir neçə biznes müqaviləsi imzalanacaqdır. Bu müqavilələr isə bizim bu səhər cənab Prezidentlə müzakirə etdiklərimizi əks etdirəcəkdir. İqlim şəraitimizin müxtəlifliyinə görə bizim iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparan iqtisadiyyatlar deyil. Bunlar bir-birini müxtəlif mallarla təmin edə bilən iqtisadiyyatlardır. Bizim Latviyaya ixracımızı və Latviyadan Azərbaycana idxalı artırmaq üçün yaxşı fürsətlər var. Biz əsasən sizin istehsal və ixrac etdiyinizi idxal edirik, siz də bizim istehsal və ixrac etdiyimizi idxal edirsiniz. Bu, ticarət dövriyyəsini artırmaqla bağlı konkret layihələr üzərində işləmək üçün yaxşı fürsətlər var. Hökumətlərarası Komissiya tərəfindən əlaqələndirilən biznes qruplarının işidir. İqtisadi əməkdaşlığımızın digər vacib hissəsi qarşılıqlı sərmayə qoyuluşu ola bilər. Beləliklə, biz çox vacib məqama gəlib çatırıq. Bu barədə daha çox informasiyaya malik olmaq lazımdır. Çünki yaxşı investisiya portfelinə malik olmaq üçün bizim bütün əsas ilkin şərtlərimiz var. Bu isə güclü siyasi dir və biznesmenlər adətən sabit mühitə investisiya qoyurlar. Buna görə də ölkələrimiz arasında güclü siyasi və dost münasibətlər investisiyaların qoyuluşunu çox cəlbedici edir. İndi biz potensial investisiya sahələrini müəyyənləşdirməli və biznes qruplarının yerli tələbata uyğun planlarını koordinasiya etməliyik. Zənnimcə, bu böyük auditoriyanı nəzərə alaraq bunu etmək asan olacaqdır. Əminəm ki, bu gün bir çox yeni biznes əlaqələri qurulacaqdır.

Əlbəttə, mən Latviya şirkətlərini Azərbaycanda podratçı qismində işləməyə bir daha dəvət etmək istəyirəm. Azərbaycanda müxtəlif layihələri icra etmiş bir neçə Latviya şirkəti olmuşdur. Bu layihələr çox uğurlu və yüksək səviyyədə icra edilmişdir. Buna görə də şirkətlərinizin yaxşı ekspert biliyi, nüfuzu və peşəkar səviyyəsi var. Biz Azərbaycanda sizin şirkətlər üçün maraqlı ola biləcək bir çox infrastruktur layihələrini həyata keçiririk. Ümumiyyətlə, Azərbaycanda investisiya mühiti çox müsbətdir. Son iyirmi il ərzində Azərbaycana 200 milyard dollardan çox investisiya qoyulmuşdur. İqtisadiyyatımız rəqabətqabiliyyətlidir. Davos Dünya İqtisadi Forumuna əsasən Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətlilik indeksinə görə 37-ci yerdə qərarlaşıb. Ölkə siyasi və iqtisadi cəhətdən sabitdir. Bir çox infrastruktur layihələri həyata keçirilməkdədir. Avropada və dünyanın digər yerlərində olan bir çox şirkətlər bu layihələrin icrasında bizim tərəfdaşlarımız qismində çıxış edirlər. Enerji amilindən asılılığı azaltmaq üçün Azərbaycanın iqtisadi gündəliyi indi iqtisadiyyatın şaxələnməsinə yönəlib. Bu, artıq baş verir. Ümumi daxili məhsulun ən böyük hissəsi qeyri-enerji sektorunun payına düşür. Bu, bizə qeyri-enerji sektorumuzu 27 faizdən daha çox artırmağa, idxalı isə 50 faiz azaltmağa imkan verdi.

Bizim iqtisadiyyatı sabit və proqnozlaşdırılan edə bilən əsaslı maliyyə resurslarımız var və maliyyə resursları xarici borcdan 5 dəfə çoxdur. Buna görə də ölkəmiz Latviyaya, Avropaya dost ölkədir. Avropa ölkələri ilə çoxlu biznes əlaqələri var və bu gün imzalanan strateji tərəfdaşlıq üzrə Birgə Bəyannamə bu qəbildən olan on birinci bəyannamədir. Azərbaycanın Avropa İttifaqının üzvü olan on bir ölkə ilə strateji tərəfdaşlıq üzrə əməkdaşlıq formatı var. Bu gün biz əsasən meqalayihə olan Şimal-Cənub nəqliyyat şəbəkəsinin həyata keçirilməsi ilə yaranacaq imkanları müzakirə etdik. Bu layihə nəinki təkcə inşaat zamanı iş yerlərini yaradacaq, eyni zamanda, Cənubdan Şimala və Şimaldan Cənuba gedən, ərazilərimizdən keçən yükdaşımalarının həcmini əhəmiyyətli dərəcədə artıracaqdır. Biz tranzit üçün daha önəmli ölkələrə çevrilərək daha çox faydalar qazanacağıq və əlbəttə ki, bu, biznes şirkətləri üçün çoxlu fürsətlər yaradacaqdır. Həmçinin, Azərbaycanın hazırda icra etdiyi vacib layihə və birbaşa Avropa maraqlarına və əlbəttə ki, bizim maraqlara yönələn enerji şaxələnməsi layihəsi olan Cənub Qaz Dəhlizidir. Bu, indi ola bilsin ki, Avropada icra edilməkdə olan ən böyük infrastruktur layihəsidir. Layihənin ümumi dəyəri 40 milyard dollardır. Bu, Avropa İttifaqı bazarını yeni marşrutla və yeni mənbədən Azərbaycan qazı ilə təchiz edəcək layihədir. Bu, həqiqi şaxələnmədir. Çünki enerjinin şaxələnməsi təkcə marşrutların şaxələnməsi demək deyil, bu, əsasən mənbələrin şaxələnməsi deməkdir. Bizim layihədə bu, məhz belədir. Enerji təhlükəsizliyi bizim hamımızın bildiyi kimi, hər bir ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Buna görə də Azərbaycanda icra etdiyimiz bir çox layihələr sərhədlərimizin hüdudlarından çox kənara uzanır. Bu gün biz, həmçinin biznes, turistlər, xalqlar arasında əlaqələr üçün çox vacib məsələni müzakirə etdik. Söhbət il ərzində fəaliyyət göstərəcək Bakı və Riqa arasında birbaşa uçuş reysindən gedir. Beləliklə, reys təkcə ölkə rəhbərliyinin qərarı ilə deyil, eyni zamanda, kommersiya cəhətdən də əsaslandırılmış olardı.

Bizim iqlimlərimiz və hava şəraitimiz də çox fərqlidir. Hesab edirəm ki, bu, bir üstünlükdür. Çünki bizim insanlar ola bilsin qızmar yayda sərinləməyə üstünlük verir, latviyalılar isə çox güman ki, qış və digər mövsümlərdə çox günəşli havaya can atırlar. Buna görə də turizmə investisiya qoymaq və bizim məkanları turizm şirkətlərinə çox cəlbedici etmək üçün böyük potensial mövcuddur. Lakin bunun üçün bizim əlbəttə ki, daha çox əlaqələrimiz olmalıdır. Biz bir-birimizi daha yaxşı tanımalıyıq, daha çox təqdimatlar, daha çox belə forumlar keçirməliyik və bu, bizim münasibətlərimizi gücləndirəcəkdir. Bizim etdiklərimizin hamısı Latviya və Azərbaycan arasında münasibətlərin gücləndirilməsinə yönəlib və mənim bu səfərim buna çox vacib bir töhfədir.

* * * * *

Sonra biznes forum işini müzakirələrlə davam etdirib.

Azərbaycanın İqtisadiyyat Nazirliyinin, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Latviyanın İnvestisiya və İnkişaf Agentliyinin təşkil etdiyi biznes forumda hər iki tərəfdən 120-dən çox şirkəti təmsil edən 200-dək sahibkar iştirak edib.

Latviya-Azərbaycan biznes forumunda ölkələrimiz arasında iqtisadiyyatın müxtəlif sahələri üzrə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə dair təkliflər irəli sürülüb.



# Fondun Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə keçirdiyi müsabiqənin nəticələri açıqlandı

İyulun 14-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə keçirdiyi "Özünüməşğulluq - öz məşğulluğunu qur və ailə biznesinə yiyələn" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar.

Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov, Fondun icraçı direktoru Vüqar Səfərli, Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak ediblər.





Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov tədbir iştirakçılarını salamlayaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli sərəncamı əsasında həyata keçirilən özünüməşğulluq proqramının sosial-iqtisadi əhəmiyyətindən söz açıb. Nazir bildirib ki, Fondla birgə keçirilən müsabiqənin məqsədi proqramın icrası nəticəsində işsiz və işaxtaran şəxslərin ailə əməyinə əsaslanan fərdi təsərrüfatlarını quraraq özünüməşğulluq imkanlarına yiyələnmələri istiqamətində aparılan işlərin ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırılmasıdır: "Ölkədə iqtisadi şaxələndirmənin sürətləndirilməsi, yeni sənaye zonalarının yaradılması, ənənəvi kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi nəticəsində yeni iş yerlərinin yaradılmasının daimi prosesə çevrilməsi əmək bazarında sabitliyə, işsizliyin aşağı səviyyədə saxlanmasına şərait yaradıb. Eyni zamanda dövlət başçısının sosial məsuliyyətin bölüşdürülməsi təşəbbüsü çərçivəsində həyata keçirilən aktiv məşğulluq tədbirləri əhalinin məşğulluq imkanlarının artırılmasında mühüm rol oynayır".

S.Müslümov əmək resurslarının səmərəli məşğulluğunun təminatında dövlət başçısının "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli Sərəncamının yeni imkanlar açdığını diqqətə çatdırıb. Sonra nazir Fondla birgə keçirilən müsabiqəni özünüməşğulluq proqramının icrası sahəsində aparılan işlərin təbliği baxımından yüksək dəyərləndirərək nəticələr barədə məlumat vermək üçün sözü icraçı direktor Vüqar Səfərliyə verib.

Vüqar Səfərli Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə ikinci dəfədir ki, müsabiqənin keçirildiyini diqqətə çatdırıb. İcraçı direktor belə təşəbbüslərin media ilə qarşılıqlı faydalı əlaqələrin daha da genişləndirilməsi baxımından əhəmiyyətini xüsusi qeyd edib. V.Səfərli Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən vətəndaşlara xidmətlərin müasir və şəffaf iş üsulları üzərində qurulması üçün aparılan islahatların, aktiv məşğulluq proqramları çərçivəsində görülən işlərin KİV tərəfindən maraqla qarşılandığını və geniş işıqlandırıldığını vurğulayıb.

İcraçı direktor "Özünüməşğulluq - öz məşğulluğunu qur və ailə biznesinə yiyələn" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinə 35 kütləvi informasiya vasitəsindən ümumilikdə 47 yazının təqdim edildiyini, yazıların elan edilmiş şərtlərə uyğun obyektiv qiymətləndirildiyini bildirib.

Çıxışını davam etdirən Vüqar Səfərli jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə fərdi yaşayış binalarının tikilərək istifadəyə verilməsini Azərbaycan dövlətinin mediaya yüksək qayğısı və dünyada analoqu olmayan addım kimi dəyərləndirib. İcraçı direktor iyulun 21-də daha 255 nəfər jurnalistin ədalətli və şəffaf seçim əsasında mənzillə təmin olunacaqlarını və növbəti binanın təməlinin qoyulacağını bildirib.

Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələrində KİV-lə mütəmadi əməkdaşlığının təqdirəlayiq olduğunu qeyd edib. Ə.Amaşov hazırda nəticələri elan olunan bu müsabiqənin mövzusunun cəmiyyət üçün maraq kəsb edən bir mövzuya - həm sosial, həm də iqtisadi baxımdan mühüm əhəmiyyət daşıyan özünüməşğulluq proqramına həsr olunduğunu bildirib. O, müsabiqənin jurnalistlərin bu mövzuda bilik və peşəkarlıq səviyyələrinin artırılmasında önəmli rol oynadığını vurğulayıb. Şura sədri bildirib ki, bu il jurnalistlərin bayramı daha yüksək əhval-ruhiyədə keçəcək: "Jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə inşa olunan mənzillər sahiblərinə veriləcək. Mən indidən onların hər birini təbrik edirəm".

Sonra müsabiqənin qaliblərinə diplom və mükafatlar təqdim edilib.

# Azərbaycanda əks dollarlaşma davam edir: əhali manata üstünlük verir



Banklarda əhalinin əmanətlərində dollarlaşma səviyyəsi mayda 76,6%-dən 74,5%-ə düşüb.

İyunun 1-nə banklardakı fiziki şəxslərin 6 milyard 846.7 milyon manat əmanətinin 5 milyard 102 milyon manatı və ya 74,5%-i xarici valyutada, 1 milyard 744.8 milyon manatı və ya 25,5%-i milli valyutada olub.

Mayın əvvəlində banklardakı 6 milyard 873.2 milyon manat əmanətin 5 milyard 265 milyon manatı və ya 76,6%-i xarici valyutada, 1 milyard 608.2 milyon manatı və ya 23,4%-i milli valyutada idi.

Bu ilin əvvəlində xarici valyutada olan əmanətlərin xüsusi çəkisi 81,2%-ə qalxmışdı.

Mayda milli valyutada olan əmanətlər 1 milyard 608.2 milyon manatdan 1 milyard 744.8 milyon manata qalxıb, xarici valyutada olan əmanətlər isə 5 milyard 265 milyon manatdan 5 milyard 102 milyon manata düşüb.

Fevralın əvvəlində milli valyutada olan əmanətlər 1 milyard 452.7 milyon manat, xarici valyutada olan əmanətlər isə 6 milyard 294.5 milyon manat təşkil etmişdi.

Əmanətlərin 6 milyard 17.9 milyon manatı rezidentlərə, 828.9 milyon manatı qeyri-rezidentlərə məxsus olub.

# Dövriyyədə olan nağd pul artıb

2017-ci ilin iyun ayının 1-nə dövriyyədə 7 milyard 56.8 milyon manat nağd pul olub. Mayın əvvəlində bu rəqəm 6 milyard 829.7 milyon manat, yanvarda isə 6 milyard 541 milyon manat idi.



Mayda pul bazası 10 milyard 363.8 milyon manatdan 10 milyard 88.0 milyon manata düşüb, o cümlədən manatla pul bazası 7 milyard 628.1 milyon manatdan 7 milyard 788.7 milyon manata qalxıb. Pul bazasına dövriyyədə olan nağd pul, müxbir hesablar, o cümlədən məcburi ehtiyatlar daxildir.

Mayda müxbir hesablardakı vəsaitlər 3 milyard 489.5 milyon manatdan 2 milyard 983.8 milyon manata, məcburi ehtiyatlar isə 138.2 milyon manatdan 137 milyon manata düşüb.

Dövriyyədə olan nağd pul kütləsinin pul bazasına nisbəti 65.9%-dən 70%-ə qalxıb.

Pul bazası dedikdə, pul kütləsinin Mərkəzi Bank tərəfindən qısa müddət ərzində dəyişdirilə bilən hissəsi nəzərdə tutulur. Pul bazasının tərkibinə dövriyyədə olan nağd pul və bank ehtiyatları (kommersiya banklarının Mərkəzi Bankdakı müxbir hesablarının qalıqları) daxildir.

# 2017-ci ilin altı ayı üzrə dövlət büdcəsinin icrasına (operativ) dair məlumat açıqlanıb

Maliyyə Nazirliyinin yaydığı məlumatda deyilir:

2017-ci ilin altı ayında dövlət büdcəsinin mədaxili 7722,8 mln. manat, xərcləri 8193,9 mln. manat olmuş, 471,1 mln. manat məbləğində büdcə kəsiri (defisit) yaranmışdır.



**Gəlirlər**

2017-ci ilin altı ayında dövlət büdcəsinin mədaxili proqnoza nisbətən 102,3 faiz və yaxud 7722,8 mln. manat icra olunmuşdur ki, bu da 2016-cı ilin eyni dövrünə nisbətən 25,9 faiz və ya 1589,0 mln. manat çoxdur.

Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən mədaxil proqnozu 102,5 faiz icra edilməklə dövlət büdcəsinə 3353,0 mln. manat vəsait təmin edilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 5,1 faiz və ya 162,9 mln. manat çoxdur. Həmin vəsaitin 71,7 faizi və ya 2404,4 mln. manatı qeyri-neft sektorundan daxilolmaların payına düşür.

2017-ci ilin altı ayında Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi proqnoza 111,9 faiz əməl edərək dövlət büdcəsinə 1169,2 mln. manat vəsait təmin etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 17,5 faiz və yaxud 173,8 mln. manat çoxdur.

Azərbaycan Respublikası Dövlət Neft Fondundan büdcəyə nəzərdə tutulan transfertdən 59,0 mln. manat az və ya 2991,0 mln. manat istifadə edilmişdir.

Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmaları 151,0 mln. manat təşkil etmişdir ki, bu da 2016-cı ilin eyni dövrü ilə müqayisədə 18,6 faiz və yaxud 23,7 mln. manat çoxdur. Sair daxilolmalar üzrə büdcəyə 58,6 mln. manat vəsait daxil olmuşdur.

2017-ci ilin aprel-iyun ayları üzrə dövlət büdcəsinin mədaxili 4131,1 mln. manat icra olunmuşdur ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 68,3 faiz və ya 1675,8 mln. manat çoxdur.

**Xərclər**

2017-ci ilin altı ayında dövlət büdcəsinin xərcləri proqnoza nisbətən 100,2 faiz və yaxud 8193,9 mln. manat icra olunmuşdur ki, bu da 2016-cı ilin eyni dövrünə nisbətən 20,1 faiz və ya 1372,4 mln. manat çoxdur.

İqtisadi təsnifata uyğun olaraq cari ilin altı ayında dövlət büdcəsi xərclərinin 42,7 faizi və yaxud 3499,9 mln. manatı sosialyönlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 18,3 faiz və yaxud 541,4 mln. manat çoxdur.

Cari ilin altl ayında dövlət əsaslı vəsait qoyuluşu xərclərindən elm, təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 397,8 mln. manat, enerji, su və qaz təchizatı, nəqliyyat, kommunal, meliorasiya infrastrukturlarının tikintisinə, yenidənqurulmasına və digər sahələrə 1180,8 mln. manat, o cümlədən Naxçıvan Muxtar Respublikasında həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsinə dövlət büdcəsinin dövlət əsaslı qoyuluşu xərclərindən 41,5 mln. manat vəsait yönəldilmişdir. 2017-ci ilin altı ayında büdcə təşkilatlarının təqdim etdikləri xərc sifarişləri üzrə xəzinədarlıq orqanları tərəfindən qəbul edilmiş öhdəliklər tam və vaxtında maliyyələşdirilmişdir.

Cari ilin aprel-iyun ayları üzrə dövlət büdcəsinin xərcləri 4281,2 mln. manat icra olunmuşdur ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,0 faiz və ya 83,1 mln. manat çoxdur.

**Kəsir**

2017-ci ilin altı ayında dövlət büdcəsində 471,1 mln. manat büdcə kəsiri (defisit) yaranmışdır. Dövlət büdcəsinin kəsiri əsasən 2017-ci il 1 yanvar tarixə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı və özəlləşdirmədən daxilolmalar hesabına örtülmüşdür.

**İcmal büdcə**

Cari ilin altı ayında icmal büdcənin gəlirləri 11606,1 mln. manat, icmal büdcənin xərcləri isə 11507,1 mln. manat icra olunmuşdur. İcmal büdcənin artıqlığı 99,0 mln. manat təşkil etmişdir.

# Qeyri-neft məhsulları valyuta gətirməyə başlayıb

2017-ci ilin yanvar-may aylarında Azərbaycanda 556,6 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da 2016-cı ilin yanvar-may aylarına nisbətən faktiki qiymətlərlə 22,1 faiz, real ifadədə isə 19,8 faiz çoxdur.



2017-ci ilin yanvar-may aylarında 2016-cı ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə tərəvəz ixracı 68,6 faiz, təzə meyvə – 67,5 faiz, kartof – 25,9 faiz, tütün – 48,6 faiz, bitki yağları – 21,1 faiz, çay – 52,2 faiz, meyvə və tərəvəz şirələri – 90,6 faiz, təbii üzüm şərabları və üzüm suslosu – 15,2 faiz, meyvə və tərəvəz konservləri – 5,7 faiz, pambıq lifi – 6,2 dəfə, bentonit gili – 3,8 dəfə artmış, şəkər ixracı isə 7,0 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar – 25,6 faiz, polietilen – 0,6 faiz, emal olunmamış alüminium – 31,2 faiz, qara metallardan borular – 14,9 faiz, qara metallardan yarımfabrikatlar – 64,5 faiz, pambıq ipliyi – 30,1 faiz azalmışdır.

2016-cı ilin yanvar-may ayları ilə müqayisədə 2017-ci ilin yanvar-may aylarında xam şəkər və şəkər idxalı 1,6 faiz, təzə meyvə – 14,1 faiz, çay – 5,1 faiz, quş əti və onun əlavə məhsulları – 2,4 dəfə, mal əti – 2,6 dəfə, minik avtomobilləri – 15,5 faiz, polad prokatı – 5,6 faiz, hesablama maşınları, blok və qurğuları – 2,1 dəfə, mebel – 17,3 faiz, qara metallardan çubuqlar – 28,4 faiz, rezin şinlər –61,2 faiz, mineral gübrələr – 5,4 dəfə, qara metallardan künclüklər ¬– 35,1 faiz, məişət kondisionerləri – 49,2 faiz, paltaryuyan maşınlar – 2,2 dəfə, yük avtomobilləri – 70,1 faiz, avtobuslar – 9,4 faiz artmış, buğda idxalı isə 38,4 faiz, bitki yağları – 26,7 faiz, kərə yağı, digər süd yağları və pastaları – 5,7 faiz, kartof – 6,4 faiz, təzə tərəvəz – 43,3 faiz, qara metallardan borular – 67,5 faiz, polietilen – 31,1 faiz, sement və sement klinkerləri – 91,5 faiz, məişət soyuducuları – 44,5 faiz azalmışdır.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2017-ci ilin yanvar-may aylarında xarici ticarət dövriyyəsi 8882,1 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 6065,2 milyon dollar, idxalın dəyəri 2816,9 milyon dollar təşkil etmiş, nəticədə 3248,3 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2016-cı ilin yanvar-may ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 6,5 faiz artmış, real ifadədə isə 15,8 faiz, o cümlədən ixrac 7,9 faiz, idxal 27,6 faiz azalmışdır.

Ticarət dövriyyəsinin 38,9 faizi Avropa İttifaqı ölkələri, 13,0 faizi MDB üzvü dövlətləri, 48,1 faizi isə dünyanın digər ölkələrinin payına düşmüşdür.

İxracın dəyərinin 21,2 faizi İtaliyaya, 13,3 faizi Türkiyəyə, 4,7 faizi Portuqaliyaya, hər biri 4,6 faiz olmaqla Gürcüstan və Kanadaya, 4,5 faizi Rusiyaya, 4,4 faizi Almaniyaya, 4,2 faizi Çinə, 4,0 faizi İsrailə, 3,9 faizi Hindistana, hər biri 3,8 faiz olmaqla Tayvan (Çinin əyaləti) və Çexiyaya, qalan 23,0 faizi isə digər ölkələrə göndərilmiş məhsullar əsasında formalaşmışdır.

İdxal olunmuş məhsulların dəyərinin 19,3 faizi Rusiyanın, 16,8 faizi Türkiyənin, 9,7 faizi Çinin, 5,1 faizi Almaniyanın, 4,8 faizi Ukraynanın, 4,2 faizi ABŞ-ın, 4,0 faizi İtaliyanın, 3,4 faizi Birləşmiş Krallığın, 3,1 faizi İranın, 2,1 faizi Qazaxıstanın, 2,0 faizi Fransanın, 25,5 faizi isə digər ölkələrin payına düşmüşdür.

# Əməkdaşlığa dair Memorandum imzalanıb



İyulun 11-də Vergilər Nazirliyinin Tədris Mərkəzində Asan könüllülərinə sertifikatların təqdim edilməsi ilə bağlı tədbir keçirilib. Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Əli Həsənov tədbir iştirakçılarını salamlayaraq bildirib ki, Vergilər Nazirliyi insan resurslarının idarə edilməsi, kadr hazırlığı və ixtisasartırma, işə qəbul prosesinin şəffaflaşdırılması, peşə etikasına əməletmə səviyyəsinin yüksəldilməsi, idarəetmə sisteminin elektronlaşdırılması, vergi orqanlarının yüksək hazırlıqlı, təşəbbüskar, innovativ yeniliklərə meyilli kadrlar hesabına komplektləşdirilməsi yolu ilə vergi inzibatçılığının daha da təkmilləşdirilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası ilə bağlı işləri davam etdirir. Bu işlərin davamı olaraq Vergilər Nazirliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi arasında ASAN könüllülərinin istehsalat təcrübəsi keçmələrinə dair ötən il iyulun 28-də müqavilə imzalanıb. Müqaviləyə əsasən, 2017-ci ilin ilk 6 ayı ərzində "ASAN xidmət" mərkəzlərinə müqavilə əsasında cəlb edilmiş 30 nəfər ASAN könüllüsünün dövlət vergi orqanlarında istehsalat təcrübəsi keçməsi təmin edilib. Bu dövr ərzində ASAN könüllüləri vergi orqanlarında təcrübə keçərək Azərbaycanda vergi orqanlarının fəaliyyət istiqamətləri və bu orqanlarda mövcud olan təcrübə ilə yaxından tanış olublar. Sonra ASAN könüllülərinə Vergilər Nazirliyində istehsalat təcrübəsi keçmələri barədə sertifikatlar təqdim edilib.

Mərasimin sonunda Vergilər Nazirliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi arasında gələcək əməkdaşlığa dair Memorandum imzalanıb.

Memorandumu Vergilər Nazirliyi adından Nazirliyin Tədris Mərkəzinin rəisi Əli Həsənov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi adından Agentliyin sədr müavini Ülvi Mehdiyev imzalayıblar.

# Vergilər Nazirliyində görüş keçirilib

İyulun 18-də Vergilər Nazirliyində Amerika Birləşmiş Ştatları (ABŞ) Səfirliyinin nümayəndələri ilə görüş keçirilib. Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev qonaqları salamlayaraq Azərbaycanda mövcud iqtisadi vəziyyət və iqtisadi inkişaf göstəriciləri, vergi sistemində aparılan modernləşmə prosesi, vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində əldə edilən nailiyyətlər barədə məlumat verib. Nazir müavini bildirib ki, Vergilər Nazirliyi ikitərəfli və çoxtərəfli əməkdaşlıq mexanizmi çərçivəsində xarici ölkələrin, o cümlədən ABŞ-ın vergi orqanları ilə əməkdaşlığı genişləndirir.

İ.Vəliyev Amerika Ticarət Palatası (AmCham) ilə birlikdə vergi konfranslarının təşkil edildiyini qeyd edərək, bu görüşlərin vergi orqanları ilə biznes strukturları arasında partnyorluq münasibətlərinin inkişaf etdirilməsində müstəsna rol oynadığını diqqətə çatdırıb. Nazir müavini Azərbaycan Respublikasının Prezidentinin imzaladığı "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" 4 avqust 2016-cı il tarixli Sərəncamına toxunaraq bildirib ki, vergi orqanları qarşısında qoyulmuş vəzifələrin icrası zamanı AmCham-la birlikdə keçirilmiş görüşlərdə səslənən tövsiyyələr də nəzərə alınıb. Qeyd edib ki, ABŞ-la əməkdaşlığın davamı olaraq 2015-ci ildən «Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (FATCA) tələblərinin həyata keçirilməsi barədə Saziş» qüvvəyə minib. Bu sazişə əsasən, tərəflərin vergi ödəyicilərinin bank hesabları, həmin hesablara aid əməliyyatlar barədə məlumatların mübadiləsi həyata keçirilir.



Qonaqlara "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"ndə müəyyən olunmuş hədəflər, onların mahiyyəti, habelə bilavasitə Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı olan istiqamətlər barədə məlumat verilib. Qeyd edilib ki, nazirliyin əsas icraçı olduğu sahələrdən biri əlverişli biznes mühitinin inkişaf etdirilməsi hədəfi üzrə səmərəli vergi sisteminin təşviq edilməsidir. Hazırda Azərbaycanda ABŞ-a məxsus 300-ə yaxın müəssisə və təşkilat fəaliyyət göstərir və investisiya mühitinin daha da əlverişli vəziyyətə çatıdırılması bu müəssisələrin sayının artmasına təkan verəcək.

ABŞ Missiya Rəhbərinin müavini Uilyam Gill Azərbaycanın vergi sistemində aparılan islahatların təqdirəlayiq olduğunu bildirib. Strateji yol xəritələrinin uğurlu təşəbbüs olduğunu qeyd edən qonaq vergi güzəştlərinin təyin edilməsi, investisiya mühitinin yaxşılaşdırlması, vergi rejiminin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məsələlərinin doğru hədəflər olduğunu vurğulayıb. Azərbaycanla iqtisadi münasibətlərin uğurla davam etdiyini bildirən U.Gill bu sahədə əməkdaşlığın daha da genişlənməsinə maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə nümayəndə heyətinin üzvləri ilə ABŞ şirkətlərinin Azərbaycandakı fəaliyyəti ilə bağlı məsələlər müzakirə olunub və bir sıra suallar cavablandırılıb.

# PAŞA Bank biznes üçün unikal kart məhsulu olan Tacir Kartı təqdim edir

Ölkənin aparıcı korporativ bankı - PAŞA Bank iş adamlarını dəstəkləmək məqsədi ilə bazara unikal kart məhsulu təqdim edir – Tacir Kart.

Tacir Kart ticari prosesdə iştirak edən hər iki tərəf üçün faydalıdır: hazırda malların satışı ilə məşğul olan pərakəndə satış obyektlərinin sahibləri malı ünvanlı çatdırılma həyata keçirən iri distribyutorlardan alır. Sahibkarın aldığı malların ödənişləri nağd və ya bank köçürməsi yolu ilə həyata keçirilir. PAŞA Bank Tacir Kartı istifadəçiləri üçün unikal şəbəkə yaratmaqla, tərəflər arasında ticari əlaqələrin genişlənməsini və operativliyini təmin edir.

Tacir Kartın PAŞA POS terminalı ilə istifadəsinin Distribyutor üçün ən önəmli üstünlüklərindən biri 18% ƏDV-nin avtomatik hesablanması ilə yanaşı həmin məbləğin avtomatik çıxarılaraq Sahibkarın adından vergi depoziti hesabına göndərilməsi imkanıdır. Nağdsız ödənişlərin qəbulunu POS-terminal ilə təchiz olunmuş ekspeditorlar özləri həyata keçirir.

Sahibkar üçün bu kart avtomatlaşdırılmış bir ödəmə imkanı yaradır ki, bu da onların öz işlərini nağdsız şəkildə, daha çevik və operativ olaraq həll etməyə zəmin yaradır.

PAŞA Bankın Baş kommersiya İnzibatçısı Melih Mengünün sözlərinə görə, Bank, məhsul və xidmətləri işləyib hazırlayarkən, əsas meyar olaraq müştərilərinin biznes ehtiyaclarını rəhbər tutur. "Əminik ki, Tacir Kartın istifadəsi PAŞA Bankın müştəriləri qarşısında geniş imkanlar açıb, onlara bizneslərin rəqabət üstünlüklərindən faydalanmağa yardım edəcək» - deyə, M.Mengü yekunlaşdırdı.




Tacir Kartdan istifadənin əsas üstünlükləri:

**Sahibkarlar üçün:**

- Ən qısa müddətdə nağd ödənişlərdən qeyri-nağd ödənişlərə keçid
- Hesabatlılığın asanlaşması
- Kartın kredit xəttindən faydalanmaq imkanı
- Hər Distribyutor üzrə müxtəlif limitlərin müəyyən olunması

Distribyutor şirkətlər üçün:

- Pul dövriyyəsinin nağdsız formaya keçməsi
- Şirkətin pul dövriyyəsinin effektiv idarə edilməsi
- Mobil POS terminal vasitəsi ilə ödənişlərin qəbulu
- Nağd vəsaitin qəbulu ilə əlaqəli risklərin azalması
- Vəsaitin həmin gün hesaba köçürülməsi
- İnkassasiya xidmətinə ehtiyacın olmaması
- Hesabatlılığın asanlaşması
- Sahibkarlara fərdi kredit limitlərinin müəyyən edilməsi.

# 2017-ci ilin I yarımilliyi ərzində vergi hüquqpozmalarına qarşı görülmüş mübarizə tədbirləri haqqında

2017-ci ilin 1-ci yarımilliyində Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə başlanmış 139 cinayət işi üzrə aparılan araşdırmalar zamanı 7 milyon 806,5 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib.

38 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə onların icraatına xitam verilib.

Departamentin İstintaq idarəsində 254 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 5 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 65 iş üzrə 75 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 13 nəfər şəxs tutularaq, Departamentin İstintaq idarəsinə təhvil verilib, ibtidai istintaqdan yayınan 129 şəxsin məcburi qaydada gətirilməsi, 172 şəxsin tapılaraq istintaqa gəlmələri, 190 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilib. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 82 nəfər vergi ödəyicisi tapılaraq onların müvafiq vergi orqanlarına gəlmələri təmin olunub.

# 2017-ci ilin 1-ci yarımilliyində vergi ödəyicilərinə göstərilmiş xidmətlər haqqında

2017-ci ilin yanvar-iyun ayları ərzində Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı daxil olmuş 121079 zəng cavablandırılıb. Vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə onlara 1672040 SMS, o cümlədən ikitərəfli mesaj xidmətinin istifadəçilərinə 641952 SMS göndərilib.

Hesabat dövründə Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 2756106 daxilolma qeydə alınıb.

2017-ci ilin 1 iyul tarixinə vergi ödəyicilərinə ümumilikdə 329176 sayda ASAN İmza sertifikatı verilib. Vergi ödəyicilərinə xidmət mərkəzləri tərəfindən 293082 vergi ödəyicisi qəbul edilərək onlara 458513 sayda ünvanlı xidmət göstərilib.

2017-ci ilin yanvar-iyun ayları ərzində qeydiyyatdan keçmiş vergi ödəyicilərinin sayı 103968 olub ki, bu da ötən ilin müvafiq dövründə qeydiyyatdan keçmiş vergi ödəyicilərinin sayından 2 dəfə çoxdur. Qeydiyyata alınmış təsərrüfat subyektlərinin (obyektlərinin) sayı 16000 olub, 8540 sayda NKA və 3415 sayda POS-terminal qeydiyyatdan keçirilib.

2017-ci ilin yanvar-iyun ayları ərzində 1595 vergi ödəyicisinə 3035 sayda "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" təqdim edilib. 2017-ci ilin yanvar-iyun ayları ərzində təqdim edilməli vergi bəyannamələrinin 84,2%-i vaxtında, onlardan 95,4%-i elektron qaydada təqdim edilib.



# Elmi fəaliyyətdə akademik etika problemləri

Akademik etika elmi və universitet mühitində qəbul edilmiş, tədqiqatçılar və müəllimlər, tələbələr, menecerlər və inzibatçılar, köməkçi heyət də daxil olmaqla, maraqlanan bütün tərəflərə toxunan peşə etikasının bir formasıdır. Peşə etikasının funksiyası xidmətlər istehlakçıları, dövlət və cəmiyyət tərəfindən peşəyə etibarın qorunub saxlanması məqsədi ilə peşə birliyi üzvlərinin fəaliyyətinin normativ tənzimlənməsindən ibarətdir. Problem ondan ibarətdir ki, peşə etikası işləmədikdə, ayrı-ayrı xoşagəlməz hərəkətlərdən və peşə korporasiyanın üzvlərinin vicdansız davranışından formalaşan bir çox deviasiyalar yığılır, nəticədə, bütöv bilik sahələri və peşə fəaliyyətləri etibardan düşür.

Etibarın yoxluğu peşə qrupunun gəlirlərinə zərər vurur, çünki istehlakçılar onlara xidmət üçün müraciət etmir. Bundan başqa, bu, cəmiyyətin mühüm institusional sferalarına da ciddi təsir göstərir.

Akademik etika nə üçün elm və ali təhsil dünyasında bu qədər əhəmiyyətli və mübahisəli bir məsələdir? Bunun bir neçə səbəbi var. Birincisi, istehsal və elm müasir cəmiyyət üçün əhəmiyyətli olan elmi biliklərin istehsalı və yayılması məsələsi ilə bağlıdır. Onların keyfiyyəti texnologiyaların, sosial münasibətlərin və mədəniyyətin inkişafı üçün maddi və simvolik əsasları formalaşdırır. Buna görə də cəmiyyətin bu fəaliyyətlə məşğul olan sosial instituta etibarı olmalıdır. İkincisi, biliklərin əhəmiyyətli hissəsini aydın və aşkar şəkildə təsvir edib strukturlaşdırmaq olmur. Onlar şəxsi qarşılıqlı təsirlər və qeyri-formal münasibətlər məkanında qalır, amma birliyin üzvləri tərəfindən başa düşülür və bölüşdürülür. Bu, onunla bağlıdır ki, elmi yaradıcılıq prosesi kodifikasiya üçün məhdud resurslara malikdir və hətta ciddi eksperimental əsası olan təbiət elmlərində belə bacarıqlar və biliklərin hamısını birmənalı şəkildə təsvir edib şərh etmək mümkün olmur.

Əlbəttə, müasir elmi fəaliyyətdə elmi etikanın universal prinsipləri mövcuddur ki, onlara da vicdanlı alimlər və müəllimlər əməl edirlər. Bu prinsiplər ayrı-ayrı universitetlər və ya peşə assosiasiyaları tərəfindən qəbul edilmiş formal sənədlərdə (peşə etikası kodeksləri və ya konkret təşkilatlarda peşə davranışı kodeksləri) əks etdirilir.

Ancaq bu prinsiplərin əksəriyyəti heç də yalnız insanın işlədiyi universitet tərəfindən sanksiyaların altına düşməmək üçün əməl etməli olduğu formal qaydalar deyil. Akademik birliyin qeyri-formal qaydalar, ənənələr, normalar kompleksi də var ki, onlar da çox vaxt heç yerdə təsvir olunmur, amma öz-özünə aydın olan bir şey kimi nəzərdə tutulur. Sözsüz, plagiat, korrupsiya, akademik iyerarxiyada üstün mövqedən şəxsi maraqlar üçün istifadə edilməsi, eksperimental və istənilən empirik məlumatların saxtalaşdırılması, hər hansı əsasa görə diskriminasiya və akademik aləmin bir sıra başqa "günahları" yalnız mənəvi qınaq obyekti olmayıb, akademik peşədən xaric edilməyə və hətta məhkəmə təhqiqatlarına da səbəb ola bilir.

Bu qaydaların universallığı onların praktik implementasiyasının sadə olduğunu göstərmir. Birincisi, akademiyanın alimlər arasında vahid informasiya mühiti vasitəsilə sıx beynəlxalq kooperasiyanın mövcud olduğu ən çox qloballaşmış peşə mühitlərindən biri olmasına baxmayaraq, yenə də bizim dünyamızda hələlik bir çox mədəni və institusional kontekstlər qalmışdır ki, onları da vahid məxrəcə gətirmək çətindir. Məsələn, bəzi akademik mədəniyyətlərdə aspirantla elmi rəhbərin münasibətləri müvafiq hüquq qaydaları və rasional qarşılıqlı təsirlərin yazılmamış qanunları ilə sərt tənzimlənirsə, başqa mədəniyyətlərdə orta əsrlərdən, hətta ondan əvvəlki tarixi dövrdən qalan ustad və şagird münasibətləri modeli işləyir və bu halda qeyri-formal qarşılıqlı təsirlər daha geniş xarakter alır. İkincisi, hətta alim və müəllimlərin iş təcrübəsində belə sərhəd xarakterli vəziyyətlərə rast gəlinir, yəni bu situasiyalar akademik etikanın pozulması kimi də şərh oluna bilər, alim və ya müəllimin səhvi, yaxud icazə verilən davranışı kimi də.

Mümkün pozuntuya həmkarların qınayıcı diqqətinin cəlb edilməsi faktının özü artıq istənilən akademik peşəkar üçün böyük simvolik cəzadır və belə hadisələrin araşdırılmasına, həm də onların açıq müzakirəsinə son dərəcə diqqətli və hətta, demək olar ki, nəzakətlə yanaşmaq lazımdır. Bununla əlaqədar akademik roman janrına müraciət etmək olar. Burada süjetlərin əksəriyyəti belə sərhəd vəziyyətlərinin təhlili üzərində qurulmuşdur. Bir daha vurğulayım: elmi fəaliyyət yalnız diplomdan başqa, heç nə ilə maraqlanmayan kənar insanlar tərəfindən deyil, həm də özünü tədqiqat və pedaqoji fəaliyyətə həsr etmiş insanlar tərəfindəndə simulyasiya edilir.

Bu yaxınlarda bizdə "resenziyalaşdırılan jurnallar" anlayışı ortaya çıxdı, amma bu anlayışla birlikdə bir çox jurnallar da meydana gəldi ki, onlar da özünü resenziyalaşdırılan jurnallar kimi qələmə verirlər. Bununla belə, onlar kommersiya müəssisələridir və daxil olan məqalələrə resenziyanın yazılması yalnız gözdən pərdə asmaq üçündür. Bəzi jurnallarda bu, hətta mexanikləşdirilmişdir. Güclə tezislərə çəkən əsərlər elmi məqalə adlandırılır. Bu əsərlərin müəllifləri alim kimi tanınır, onlar isə özlərini ciddi olaraq alim hesab edirlər. Onlar tədrisə buraxılır, dərsliklər yazırlar və s.

Sözsüz, bu problemlə bağlı akademik dialoqu inkişaf etdirmək lazımdır. Plagiat problemini, saxta diplomlar, saxta referatlar problemini, bütövlükdə, elmi etika problemlərini birgə müzakirə etmək lazımdır. Ona diqqəti yönəltmək lazımdır ki, sonralar alimlik dərəcələri alan bugünkü bir çox ali məktəb məzunları həyatı boyunca faktiki olaraq heç bir elmi iş yazmamışdırlar. Bu vaxt ərzində onlar xalis plagiatla məşğul olmuşdurlar. Bununla belə, onlar öz təhsili haqqında lazımi sənədləri ala, təkcə dövlət idarəçiliyində və biznesdə deyil, həm də akademik mühitdə arzu etdikləri vəzifələri tuta bilmişdirlər.



**Mustafa Abbasbəyli,**
**UNEC-in iqtisad elmləri proqramı üzrə doktorantura proqramının doktorantı, h.e.n.**

# Benzinlər üçün aksiz dərəcələri endirildi, idxal rüsumu ləğv edildi

Azərbaycana gətirilən 92 oktan ədədi ilə benzin idxal rüsumundan azad edilib. Bundan başqa benzinlər üçün aksiz dərəcələri 1 ton üçün 200 manatdan 1 manata endirilib.

Nazirlər Kabineti bununla bağlı 22 dekabr tarixli 161 nömrəli qərarı ilə təsdiq edilmiş mətndə "Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri"ndə müvafiq dəyişikliklər edib.

İndiyə qədər bu mühərrik benzinləri gömrük dəyərinin 15 faizi həcmində idxal rüsumuna cəlb edilib.

Nazirlər Kabinetinin digər qərarı ilə, "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında" A 2001-ci il 19 yanvar tarixli 20 nömrəli qərarında dəyişikliklər edib.

Dəyişiklik ilə, Azərbaycana gətirilən mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədi ilə və mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox, 95-dən az oktan ədədi ilə benzinlər (o cümlədən, 92 oktan ədədi ilə benzinə) üçün aksiz dərəcələri 1 ton üçün 200 manatdan 1 manata endirilib.

Hər iki qərar dərc edildiyi gündən qüvvəyə minir və 90 gün müddətində qüvvədədir.

Ekspertlərin fikrincə, bu güzəştlər müvəqqəti xarakter daşıyır: "Güman edilir ki, bu qərar yerli benzin istehsalı həyata keçirən Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda təmir-yenidənqurma işlərinin aparılması ilə bağlıdır. Belə ki, yerli istehsalın azalmasının tələbə təsir etməməsi üçün növbəti 3 ayda idxalda güzəştlər tətbiq ediləcək.

Bu zaman istehlakçılara yalnız yerli deyil, eyni zamanda oxşar markalı xarici benzin də təklif ediləcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.**

# REGİONLARDA SƏNAYE MÜƏSSİSƏLƏRİ İNKİŞAF ETMƏKDƏDİR



Azərbaycanın bütün bölgələri çox sürətlə inkişaf edir, o cümlədən də İsmayıllı rayonu. "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində 2017-ci ilin birinci rübündə rayonda ümumi məhsul buraxılışı faktiki qiymətlərlə 33 milyon 234 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 358 min manat çoxdur. Əsas kapitala investisiya qoyuluşu 8 milyon 199 min manat, əvvəlki illə müqayisədə 3 milyon 877 min manat çox olmuşdur. Pərakəndə əmtəə dövriyyəsi 17,3 faiz yüksələrək 42,1 milyon manata çatmış, 6,2 milyon manat artmışdır. Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri əvvəlki illə müqayisədə 640 min manat artaraq 6 milyon 460 min manat təşkil etmişdir. 2017-ci ildən başlayaraq rayon büdcəsi özünümaliyyələşdirmə qaydasında, yəni Respublika büdcəsindən dotasiya almadan icra edilir. Rayon büdcəsinin gəlirlər hissəsi 1 milyon 116 min manata qarşı 1 milyon 175 min manat icra olunmuşdur. Büdcə gəlirlərinin icrası 105 faiz təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, 2017-ci ildə Xəlilli, Əyyubbəyli, Çayqovuşan, Çərmədil və Gideyli kəndlərində əhalini təmiz içməli su ilə təmin etmək üçün modul tipli sutəmizləyici qurğunun quraşdırılması nəzərdə tutulmuşdur. Və dövriyyədə olan 899 ailənin 4099 üzvünə cəmi 375,6 min manat ünvanlı sosial yardım verilmişdir. Ünvanlı sosial yardım alan ailələrin sayı əvvəlki illə müqayisədə 15 ailə artmış, hər ailəyə düşən orta aylıq məbləğ 139 manat 27 qəpik, adambaşına düşən aylıq məbləğ isə 30 manat 24 qəpik olmuşdur. Mənzil istismar sahəsinin xidmətində 1203 ailə yaşayan 977 mənzil vardır. Əhaliyə 1668 manat dəyərində mənzil-kommunal xidməti göstərilmişdir. Həmçinin, 2017-ci ilin məhsulu üçün ötən ilin payızında 29453 hektar sahə şumlanmış, 21795 ha buğda, 6459 ha arpa, 137 ha çovdar olmaqla 28391 hektar sahədə səpin aparılmışdır. 2017-ci ilin yaz mövsümündə Kəlbənd kəndində 7 ha, Qalınçaq kəndində isə 4,7 ha sahədə müxtəlif meyvələrdən ibarət yeni intensiv meyvə bağları, Qubaxəlilli kəndində 40 ha sahədə qoz bağı salınmışdır.

2016-cı ilin payızında 458,7 ha və cari ilin 3 ayında isə 115 ha, cəmi 473,7 ha sahədə yeni fındıq bağları salınmışdır. İlin sonuna kimi daha 1450 ha sahədə yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. Bu istiqamətdə işlər davam etdirilir.

Kürdmaşı kəndində fəaliyyət göstərən "Kənd" MMC tərəfindən filloksera zərərvericisinə davamlı süfrə sortlardan ibarət 25 ha sahədə üzüm bağı salınmışdır. 2017-ci ilin ilk 3 ayında 1314 ton diri çəkidə ət, 8558 ton süd, 2537 min ədəd yumurta istehsal olunmuşdur. Rayonda mövcud iri və xırda buynuzlu mal-qaranın, eləcə də epizootik durumun sağlam olması üçün heyvanlar arasında dabaq, qarayara, vərəm əleyhinə peyvəndləmə aparılmış, bruselyoz xəstəliyinin müəyyən edilməsi üçün qan nümunələri götürülərək müayinə edilmişdir.

2016-cı ildə rayonun Qalınçaq kəndində illik istehsal gücü 1000 ton olan quşçuluq fabrikinin, Diyallı kəndində ölkəmizdə ilk velosiped zavodunun, Xanagah kəndində inşaat materialları zavodunun, İsmayıllı şəhərində kartof-çipsi istehsalı müəssisəsinin inşası başa çatdırılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi sosial və iqtisadi siyasət, tövsiyə və tapşırıqlar 2017-ci ilin birinci rübündə İsmayıllı rayonunda uğurla həyata keçirilmişdir. Birinci rübdə İsmayıllı rayonunda ümumi məhsul buraxılışı faktiki qiymətlərlə 33 milyon 234 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 358 min manat çoxdur. 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə İsmayıllı rayonunda 401 iş yeri açılmış və qısa müddətdə 401 nəfər müvafiq işlə təmin olunmuşdur. Rayonun sosial-iqtisadi inkişafına dair proqnozları, sahibkarların və vətəndaşların davamlı qəbulu zamanı irəli sürdükləri təklifləri və qaynar xətt vasitəsi ilə daxil olan məlumatları ciddi təhlil etməklə təkliflər hazırlanması ilə bağlı bütün zəruri tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın ilk milli velosiped brendi "İsma Bikes" velosipedlərinin istehsal olunduğu İsmayıllı Velosiped Zavodunun açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak edib. İsmayıllı Velosiped Zavodu Azərbaycanın ən iri özəl investisiya şirkətlərindən biri olan "Synergy Group"un tərkibində fəaliyyət göstərir və şirkətin icraçı direktoru İsmayıl Süleymanov öz çıxışında "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində istifadəyə verilən İsmayıllı Velosiped Zavodunda çalışanların böyük əksəriyyətinin rayon sakinləri olduğunu söyləmişdi. O, zavod məhsullarının "Made in Azerbaijan" brendi ilə istehsal olunduğunu deyərək bunu təmsil etdiyi şirkətin ölkə iqtisadiyyatına töhfəsi kimi dəyərləndirib. "Ölkəmizdə velosiped sürənlərin sayının günü-gündən çoxalması, heç şübhəsiz ki, həvəskarlardan başqa idmançı sayının artmasına da təkan verəcək", - deyən Azərbaycan Velosiped İdmanı Federasiyasının 1-ci vitse-prezidenti Sahib Ələkbərovun sözlərinə görə, idmançılar arasında kütləvilik təmin olunarsa, rəqabət də bir o qədər güclü olar və idman sahəsində yüksək nəticələrin artması da özünü çox gözlətməyəcək.

Bolqarıstan texnologiyası ilə çalışan zavodda həvəskar və peşəkar idmançılar, həmçinin uşaqlar üçün müxtəlif tipli velosipedlər istehsal edilir və yaxın gələcəkdə burada əlil arabalarının istehsalı da nəzərdə tutulur. Zavodun ümumi sahəsi 8 hektardır. Tikinti altında sahəsi 5000 m2-dir. Buranın avadanlıqları isə Hollandiya, Çin, Türkiyə istehsalıdır.

Məhsul françayzinq altında istehsal olunacaq. Zavodda çalışacaq işçilərin sayı 100 nəfər olaraq nəzərdə tutulur. Zavodun illik istehsal gücü 30 min ədəddir, Velosioped Zavodunun 3 hektar ərazisində idman yarışlarının keçirilməsi üçün velotrek meydançası yaradılıb.

Son illər velosipeddən ekoloji cəhətdən ən təmiz nəqliyyat vasitəsi kimi istifadə hallarının artdığına toxunan Sahib Ələkbərov bunun insanların, xüsusilə gənclərin sağlamlığı üçün də böyük əhəmiyyət daşıdığını və yaxın gələcəkdə yeni velosiped yollarının, eləcə də "IDEA" İctimai Birliyinin velosiped dayanacaqlarının quraşdırılması təcrübəsinin geniş yayılmasının vacibliyini vurğulayıb.

Təqdimat mərasimində iştirakçılara məlumat verilib ki, "İSMA BİKES" markalı velosipedlər bazara yeni çıxsa da, artıq özünə çoxsaylı alıcı tapıb. Belə ki, Azərbaycan Velosiped İdmanı Federasiyası ilə olduqca sıx əməkdaşlıq edən, "Olympic Moves Azerbaijan" hərəkatına yaxından dəstək verən, dünyanın ən məşhur brendlərindən olan "Coca-Cola" şirkəti ilə İsmayıllı Velosiped zavodu ilə artıq 200 ədəd "İSMA" velosipedinin alınması ilə bağlı müqavilə imzalanıb. Bakı ilə İsmayıllıdan əlavə, Bərdədən və Lənkərandan olan iş adamları da bu zavodun məhsullarını almaq barədə razılığa gəliblər. Daha sonra İsmayıllı Velosiped Zavodunun direktoru Elçin Qəhrəmanov istehsal prosesi, bazara çıxarılan yeni velosipedlər barədə ətraflı məlumat verərək qonaqları yeni modellərlə tanış edib. Qeyd edək ki, "İSMA BİKES" velosipedlərinin istehsal olunduğu İsmayıllı Velosiped Zavodu bir neçə ay əvvəl fəaliyyətə başlayıb.

Zavod açılarkən 3 əsas modeldə velosiped istehsal edilib və cəmi bir neçə ay ərzində mühəndis konstruksiya işləri genişləndirilərərək modellərin sayı 50-yə çatdırılıb. "IDEA" İctimai Birliyinin dəstəyi ilə keçirilən təqdimat mərasimində dövlət və hökumət rəsmiləri, ölkəmizdə fəaliyyət göstərən yerli və xarici şirkətlərin nümayəndələri, peşəkar və həvəskar velosipedçilər, həmçinin velosiped satışı ilə məşğul olan sahibkarlar iştirak ediblər.

Prezident İlham Əliyevin daxili və xarici siyasətinə İsmayıllıya da etibar göstərilir, onun tapşırıqları dönmədən həyata keçirilir. Və 2017-ci ildə qarşıda daha məsul vəzifələr, Azərbaycanın xoş və uğurlu gələcəyi naminə yerinə yetiriləsi vacib olan çox böyük işlər durur.

**Nailə CABBAROVA**

# Существуют широкие возможности сотрудничества между Азербайджаном и Австрией в железнодорожной сфере




Существуют широкие возможности сотрудничества между Азербайджаном и Австрией в деле развития железнодорожной сети.

Как сообщили в отделе по связям с общественностью ЗАО, об этом говорилось на встрече в ЗАО «Азербайджанские железные дороги» с делегацией, возглавляемой федеральным министром по делам семьи и молодежи Австрии Софи Кармасин.

В ходе встречи председатель ЗАО «Азербайджанские железные дороги» Джавид Гурбанов подробно проинформировал гостей об осуществляемых на железной дороге страны преобразованиях, текущем состоянии работ по созданию важных с точки зрения роста транзитного потенциала железной дороги Баку-Тбилиси-Карс, международных транспортных коридоров «Север-Юг», «Восток-Запад», «Юг-Запад», укреплении деятельности Транскаспийского международного транспортного маршрута, а также о предстоящих задачах.

По словам Джавида Гурбанова, инициированный Азербайджаном проект «Юг-Запад» превратится наряду с прочими маршрутами в наиболее короткий, выгодный и эффективный коридор для грузопотока из Азии в Европу. Существуют широкие возможности сотрудничества между Азербайджаном и Австрией в деле развития железнодорожной сети для доставки грузов из Китая и Индии в Европу с учетом благоприятного географического расположения двух стран и их транзитного потенциала.

Далее были обсуждены перспективы двустороннего сотрудничества.

В свою очередь, Софи Кармасин выразила удовлетворение осуществляемыми в Азербайджане преобразованиями.

# Кредиторы приняли план реструктуризации обязательств Международного банка Азербайджана

Кредиторы Международного банка Азербайджана (МБА) 18 июля на общем собрании приняли план добровольной реструктуризации его обязательств, сообщили во вторник Trend в МБА.

В процессе голосования приняли участие кредиторы, владеющие 94,1 процентами реструктурируемых обязательств. При этом за добровольную реструктуризацию проголосовали 93,9 процента кредиторов, что является достаточным для принятия плана (согласно закону «О банках», для принятия решения достаточно 2/3 голосов кредиторов).

Как отмечается, план вступит в силу после утверждения Палатой надзора над финансовыми рынками и Насиминским районным судом.

По итогам реструктуризации будет произведен обмен текущих обязательств банка в иностранной валюте в размере около 3,34 миллиарда долларов на новые облигации банка и государства, а кредиторам, правомочным по старшему и субординированному долгу, будут выплачены средства в виде начисленных, но невыплаченных процентов за период с 10 мая по первое сентября 2017 года.

Правительство Азербайджана поддерживает реструктуризацию внешних обязательств Международного банка Азербайджана путем обмена финансовой задолженности на прямые суверенные обязательства государства. По итогам данного обмена кредиторы получат ценные бумаги с более высоким кредитным рейтингом.

В числе крупных зарубежных кредиторов Международного банка Азербайджана - американская компания Cargill, Citibank, Rubrika Finance Company Limited, Credit Suisse AG.

Министр финансов Азербайджана Самир Шарифов прокомментировал итоги голосования следующим образом: «Успешный исход реструктуризации



внешних обязательств Международного банка Азербайджана в очередной раз демонстрирует тот факт, что план отвечает интересам как банка, так и кредиторов. Положительный результат голосования также будет способствовать реализации планов правительства Азербайджана по приватизации банка до конца 2018 года». Итоги голосования также прокомментировал председатель Палаты надзора над финансовыми рынками Руфат Асланлы. По его мнению, принятие плана реструктуризации внешних обязательств МБА большинством иностранных кредиторов является положительным моментом для развития банковского сектора.

«Мы полностью поддерживаем данный план, который соответствует всем международным и внутренним регулятивным нормам», - добавил Асланлы.

В свою очередь председатель правления МБА Халид Ахадов отметил, что итоги прошедшего голосования – это историческое событие для Международного банка Азербайджана, подкрепляющее общие усилия по обеспечению его долгосрочного развития.

«Реструктуризация является ключевым шагом на пути его оздоровления. Итог голосования показал, что наряду с главным акционером банка и финансовым регулятором, подавляющее большинство кредиторов поддержало наш план реструктуризации внешних обязательств, как наиболее уместное решение в сложившейся сложной ситуации. По завершении процесса реструктуризации банк продолжит работу с министерством финансов по укреплению баланса путем передачи части проблемных активов небанковской кредитной организации «Аграркредит» на общую сумму в 4,9 миллиарда манатов», - сказал он.

После вступления в силу плана реструктуризации кредиторы получат средства и/или новые облигации (или в некоторых случаях средства, вырученные в результате продажи новых облигаций) в точном соответствии с механизмом, описанным в информационном меморандуме.

Как сообщалось ранее, в рамках оздоровления Международного банка Азербайджана объявлена добровольная реструктуризация его обязательств. Банк обратился в Нью-Йоркский суд за поддержкой в процессе их реструктуризации. Согласно решению суда, принятому 12 мая 2017 года, иностранные кредиторы не смогут предъявлять требований к активам МБА в процессе добровольной реструктуризации зарубежных обязательств банка.

Следом за Нью-Йоркским судом суд Лондона также принял положительное решение касательно МБА с целью предотвращения судебных исков в Великобритании со стороны иностранных кредиторов в отношении активов банка.

Международный банк Азербайджана действует с 1992 года и является одним из двух государственных банков страны.

# Смотри самую ожидаемую премьеру мира с AZERCELL!

***Абоненты Azercell смогут насладиться просмотром премьеры нового сезона сериала «Игра престолов» (“Game of Thrones”)***




Azercell дает возможность своим абонентам смотреть популярные сериалы мира в день премьеры в хорошем качестве. На сайте www.kinoserial.az, созданном при поддержке партнеров Azercell KATV1 и Mobisky, в день премьеры абоненты смогут смотреть популярные сериалы, представленные такими студиями, как HBO, Showtime, CBS, FOX.

В проект киносериалов включены самые популярные сериалы мира. Среди них фильмы, представленные Showtime, CBS, FOX, BBC, Netflix, Starz, Sky, Sony Pictures и другими известными студиями. В пакет киносериалов входят сериалы таких различных жанров, как: романтика, ужас, триллер, фантастика и другие. Здесь без перерывов можно просмотреть самые ожидаемые премьеры года и все серии сезона.

Уже 17 июля услуга «Azercell+Video» будет доступна и позволит абонентам Azercell вместе со всеми зрителями мира посмотреть давно ожидаемую международную премьеру 7-го сезона популярного сериала «Игра престолов». Для того, чтобы смотреть лучшие сериалы мира, нужно зайти на сайт www.kinoserial.az и зарегистрироваться через мобильный номер. Плата за ежедневное пользование составляет всего 0.33 AZN. Абонентам Azercell предоставлена возможность смотреть любое количество фильмов каждый день. Преимущество услуги состоит еще в том, что зритель сможет смотреть сериалы в удобное для себя время, в хорошем качестве и без рекламы. Таким образом, не нужно ждать выхода сериала на каком-то канале. Помимо этого, абоненты с легкостью смогут смотреть свои любимые сериалы в любом месте, в любое время суток на смартфоне, планшете или компьютере. Для этого достаточно быть абонентом Azercell и иметь доступ в интернет.

Для дополнительной информации отметим, что на сайте kinoserial.az уже организуется показ таких сериалов, как «Игра престолов», «Американские истории ужасов», «Молодой Папа», «Любовники», «Семь смертных грехов», «Мир дикого Запада», «Хорошая борьба» и др. В настоящее время сериалы представлены на русском и английском языках. А до конца года ожидается выполнение дубляжа некоторых сериалов и на азербайджанском языке.

Кинолюбители всегда будут первыми наслаждаться просмотром телевизионных хитов, представленных ведущими студиями мира в рамках услуги «Azercell+Video».

# Президент Azercell на престижной международной конференции "Совершенство в Качестве"

Компания награждена как ведущий провайдер коммуникационных услуг

Лидер в отрасли мобильной связи Азербайджана ООО Azercell Telekom было удостоено очередной международной премии. На конференции "Совершенство в Качестве" компания была награждена за хорошие позиции в международном рейтинге и на национальном рынке, успешную реализацию современных технологий управления, высокий уровень подготовки персонала и эффективную маркетинговую стратегию. Приняв участие на конференции, в которой Azercell была награждена как ведущий провайдер коммуникационных услуг, президент компании Вахид Мурсалиев принял премию.Европейская Бизнес Ассамблея, полагаясь на еще более успешное и динамичное развитиеООО Azercell Telekom, выразила признательность Вахиду Мурсалиеву за его участие.

Для информации сообщим, что Международная Конференция "Совершенство в Качестве", состоявшаяся в городе Люцерне Швейцарии, является ежегодным мероприятием, проводимым при поддержке Европейской Бизнес Ассамблеи (Соединенное Королевство), Оксфордского Научного Сообщества (Соединенное Королевство), Европейской Медицинской Ассоциации (Бельгия) и Швейцарского Института Стандартов Качества (Швейцария).На мероприятии, в котором собрались более 200 представителей регионального бизнеса, профессиональных и научных сообществ из 54 стран, специалисты обменивались мнениями по вопросам усовершенствования бизнеса и положительной социальной трансформации. На конференции основное внимание было отведено ролевым моделям совершенства в 4-х секторах: управление городом, корпоративное управление, лечебно-оздоровительные путешествия и управление образованием.

Отметим, что компания Azercell неоднократно награждалась со стороны местных и международных структур. Среди международных премий, полученных компаниейимеют место такие престижные премии как "Международная Бизнес Премия - Stevie", "Socialbakers Engage Award", "Socially devoted" и др.



# Абитуриенты, набравшие выше 600 баллов, в UNEC




Абитуриенты, окончив лицей имени академика Зарифы Алиевой, лицей юных талантов и курсы "Hədəf",набрав на вступительных экзаменах выше 600 баллов, побывали в UNEC.

Помощник ректора Рамиль Джаббаров дал абитуриентам подробную информацию о возможностях образования в наиболее крупном на Южном Кавказе экономического профиля университете, раскрыл философию бренда UNEC. Он рассказал о специальностях, обучаемых в UNEC, группах САБАХ, программах двойного диплома и стипендиальных программах, модели Электронного университета, проходных баллах, международных программах обмена, ответил на интересующие студентов вопросы.

Затем для абитуриентов на территории UNEC был организован инфотур.Они наблюдали за процессом экзаменов студентов, участвующих в летней школе. Ознакомились с Финансовой лабораторией, Виртуальным предприятием, читальным залом, библиотекой. В рамках инфотура абитуриенты впервыеиспытали чувство волнения в аудиториях. Абитуриентам была представлена информация о Творческом центре и Радио UNEC.Абитуриентывыразив чувство удовлетворенности в связи с посещением университета, выразили желание прийти сюда в качестве студента UNEC.

# REKLAM MÜRACİƏTİNİN YARADILMASININ ƏSAS QAYDALARI VƏ MƏRHƏLƏLƏRİ

**(əvvəli ötən sayımızda)**



Bəzən reklam üzrə mütəxəssislər kreativliyi reklam kommunikasiyasının informasiya və emosional cəhətdən tamamlanması kimi müəyyən edirlər.

Mövcudluq meyarına və illüstrasiyaların zəruriliyinə görə kreativin şərti təsnifatını ayırmaq olar:

- Dizayner (məsələn, Camel plakatı, praktiki cəhətdən bütün videoçarxlar və s.), yəni vizual surətin yaradılmasına yönələn kreativ;
- Kopirayter (yəni, mətn, məsələn, "səs ver, yoxsa uduzarsan");
- Qarışıq (birinci iki tipin elementlərini ehtiva edən).

Reklam müraciətinin yaradılması mürəkkəb və çoxplanlı prosesdir ki, yaradıcı elementlərlə yanaşı, özündə həm elmi tədqiqatların elementlərini, həm məntiqi təhlilin aparılmasını, həm də mürəkkəb, şəxslərarası münasibətləri birləşdirir (sifarişçini və reklamçını, yaradıcı işçiləri və menecerləri, reklam agentliyinin müxtəlif bölmələrinin əməkdaşlarını və s.).

ABŞ-ın BBDO reklam agentliyinin keçmiş baş direktoru A.Osborn yaradıcı reklam prosesinin aşağıdakı əsas mərhələlərini ayırmışdı:

- Oriyentasiya – problemin müəyyən edilməsi;
- Hazırlıq – işə aid informasiyanın toplanması;
- Təhlil – toplanmış materialın təsnifatı;
- İdeyanın formalaşması – müxtəlif ideya variantlarının toplanması;
- İnkubasiya – gözləmə, bu zaman aydınlatma baş verir;
- Sintez – qərarın işlənib hazırlanması;
- Qiymətləndirmə - əldə olunmuş ideyaların nəzərdən keçirilməsi.

Reklam müraciətinin işlənib hazırlanması prosesini yalnız onun yaradıcı tərəfinə müncər etmək olmaz. Reklam agentliklərinin yaradıcı işçiləri (kopirayterlər, dizaynerlər, rəssamlar və b.) yalnız reklam sənətinin kiçik bir əsərini yox, həm də məqsədli auditoriyanın hər hansı bir şeyi alması üçün işgüzar təklif də yaratmalıdırlar ki, bundan ünvan sahibinin imtina etməsi çətin olsun. Bununla əlaqədar kommunikatorun marketinq məqsədlərinin reklam müraciətinin hazırlanması prosesində nəzərə alınması vacibdir (o cümlədən, işlənib hazırlanan reklamın gözlənilən iqtisadi səmərəsi, hazırlanma müddəti, reklam kampaniyasının büdcəsinə görə onun arzuların nəzərə alınması). Reklam göndərişinin məzmunu və forması, onun yayılma kanalları məqsədli auditoriyasının xarakteristikasından asılıdır.

Reklamçılar tərəfindən reklam müraciətlərinin işlənib hazırlanma prosesinə elmi yanaşmanın gətirilməsi arzusu tamamilə təbii meyil kimi çıxış edir.

Reklam təcrübəsində geniş yayılan ən tanınmış elmi kreativ texnologiyalar sırasında təsviri vəzifələrin həlli nəzəriyyəsinin (THVN) tətbiqidir. Bu nəzəriyyənin banisi Q.S.Altşullerdir. Bu nəzəriyyənin əsas kateqoriyaları "təfəkkür ətaləti", "resurs", "uyğunlaşma", "ziddiyyət", "ideal son nəticə" və s. hesab olunur.

Reklam müraciətlərinin işlənib hazırlanması prosesində aktiv istifadə olunan daha bir texnologiya neyrolinqvistik proqramlaşdırmadır (Neuro-Linguistic Proqramming – NLP). Bu istiqamət ABŞ-da keçən əsrin 70-ci illərinin ortalarında tətbiqi psixologiyada istiqamət kimi yaranmışdır. Onun baniləri C.Qrinder və R.Bendler hesab olunur. Tanınmış amerikalı reklamçılar C.O.Konnor və S.Seymor bu konsepsiyanın mahiyyətini belə müəyyən edirlər: "NLP şəxsi ustalıq haqqında elm və sənətdir. Sənət ona görədir ki, hər bir kəs unikal fərd kimi yeniliyin üslubunu daxil edir ki, onu sözlərlə və texnologiyalarla əks etdirmək mümkün deyil. Elm ona görədir ki, görkəmli nəticələrə nail olmaq üçün hər hansı bir sahədə görkəmli şəxslər tərəfindən istifadə olunan patternlərin (ing. "pattern" – "nümunə", "şablon" deməkdir və alınma söz mənasını bildirir) aşkar olunması metodu və prosesi mövcuddur. Bununla belə "pattern" dedikdə, reklamda "müntəzəm təkrar olunan sabit element (fraqment) və ya davranış elementlərinin (fraqmentlərinin) ardıcıllığı başa düşülür.

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# "Sosial sahənin iqtisadiyyatı" adlı yeni dərs vəsaiti

Sosial sahə öz əhəmiyyətinə və əhatə dairəsinə görə cəmiyyətin inkişafında mühüm yerlərdən birini tutur. Sosial sfera: səhiyyə, turizm, elm, təhsil, mədəniyyət, sosial təminat, mənzil təsərrüfatı və s. sahələri özündə birləşdirir. Bir sıra xüsusiyyətlərinə görə bu sahə iqtisadiyyatın digər sahələrindən fərqlənir. Bu sahənin inkişafına nail olmadan iqtisadiyyatın inkişafını görmək mümkün deyil. Çünki sosial sahənin inkişafı ilə iqtisadiyyatın inkişafı arasında asılılıq vardır. Bu asılılıq cəmiyyət üzvləri arasındakı sosial və iqtisadi münasibətləri təcəssüm etdirir. Bu sahələrin fəaliyyəti sosial-iqtisadi xarakterli qanunların tələb və prinsipindən çox asılıdır və bu qanunların öyrənilməsi vacibdir.

"Sosial sahənin iqtisadiyyatı" fənni bakalavr tədris pilləsində tədris olunur. i.f.d. H.S.Şamilova tərəfindən Təhsil Nazirliyinin müvafiq standartlarına uyğun olaraq "Sosial sahənin iqtisadiyyatı" adlı dərs vəsaiti hazırlanmışdır. Vəsait müasir dövrün tələblərinə uyğun olaraq tərtib edilmişdir. Dərs vəsaiti sosial sferaya aid bütün sahələri əhatə etməklə yazılmışdır və uğurlu, səmərəli tədris materialı kimi qiymətləndirilə bilər.




"Sosial sahənin iqtisadiyyatı" fənninin tədrisində əsas məqsəd cəmiyyətin davamlı inkişafında mühüm rolu olan sosial problemlərin, sosial sahələrin fəaliyyətinin təmin olunması üçün mühüm əhəmiyyət kəsb edən sosial-iqtisadi xarakterli qanunların tələb və prinsiplərinin öyrənilməsindən ibarətdir.

Dərs vəsaitində bu problemi daha dolğun aydınlaşdırmaq üçün müəyyən vəzifələr qarşıya qoyulmuşdur:

- sosial problemlərin öyrənilməsinin və həllinin cəmiyyətdə rolunun müəyyən olunması;
- "Sosial sahənin iqtisadiyyatı" fənninin digər konkret və sahə elmləri ilə qarşılıqlı surətdə əlaqələndirilməsi;
- bazar münasibətləri şəraitində cəmiyyətin sosiallaşması ilə demokratikləşdirilməsi prinsiplərinin əlaqələndirilməsi;
- ölkədə sosiallaşma parametrlərinə uyğun olaraq insan kapitalının formalaşmasının və onun fəaliyyətinin səmərəlilik meyarlarının qiymətləndirilməsi;
- sosial sahənin inkişafının sosial bərabərsizliyin aradan qaldırılmasına təsirinin araşdırılması;
- beynəlxalq təcrübədə əhalinin sosial müdafiəsi modellərinin fərqləndirici xüsusiyyətlərinin aşkar olunması və s.

Təqdim edilən dərs vəsaitində "Sosial sahənin iqtisadiyyatı" kursunun predmeti, məqsədi və vəzifələri açıqlanır, cəmiyyət və sosial sistem anlayışlarına aydınlıq gətirilir, sosial münasibətlər "Sosial sahənin iqtisadiyyatı" fənninin öyrənilmə obyekti kimi nəzərdən keçirilir. Burada sosial infrastruktur və onun iqtisadi əhəmiyyətinə, həmçinin sosial sahənin dinamikasını müəyyən edən amillərin şərhinə də yer verilir. "Sosial sahənin iqtisadiyyatı"nın digər elmlərlə qarşılıqlı əlaqəsi və bu fənnin iqtisad elmləri sistemində yeri müəyyən olunur.

Bazar iqtisadiyyatı şəraitində ictimai sektorun inkişafı məsələlərinə toxunularaq qeyd edilir ki, bu sektorun rolu da böyük əhəmiyyət kəsb edir. Bu mövzuda həmin sektorun araşdırılması qarşıya qoyulan əsas məqsədlərdən biridir. İctimai sektor dövlət sərəncamında olan iqtisadi resursların məcmusunu əks etdirir. Sosial inkişaf və onun regional aspektlərinin, xüsusilə də kəndin sosial inkişafının öyrənilməsi mövzunun tədrisində əsas məqsəd kimi qoyulmuş və dərs vəsaitində öz əksini tapmışdır.

Dərs vəsaitində tələbat və istehlakın şərhinə ayrıca mövzu nəzərdə tutulmuşdur. Mövzunun şərhi tələbatların iqtisadi mahiyyətinin açıqlanması və müxtəlif meyarlar baxımından təsnifatı ilə başlanır. Tələbat insanın, sosial qrupun və cəmiyyətin həyat-fəaliyyətini qoruyub saxlamaq üçün çatışmayan və ödənilməsi zəruri olan ehtiyac kimi nəzərdən keçirilir. Burada istehlakın formaları, səviyyəsi və strukturu da verilir və göstərilir ki, istehlak əldə olunmuş məhsulların insanlar tərəfindən istifadə olunması prosesidir.

Gəlirlər, onların bölgüsü və yenidən bölgüsü mexanizmləri dərs vəsaitində ətraflı işıqlandırılmışdır. Əhalinin həyat səviyyəsinin yüksəldilməsi hər bir cəmiyyətin qarşısında duran əsas problemlərdən biri olduğu üçün bu kateqoriyanın öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Odur ki, bu məsələ dərs vəsaitinin mövzuları arasına daxil edilmişdir. Əsas demoqrafik proseslərin təhlili, işsizlik və yoxsulluğun öyrənilməsi istiqamətində də dərs vəsaitində mövzular verilmişdir.

Əhalinin sosial müdafiəsi, onun ilkin şərtləri və təşkili prinsipləri, sosial təminat və sosial sığorta sistemi, pensiya təminatı və pensiya sistemləri, sosial sahənin idarə edilməsi və tənzimlənməsi problemi, sosial siyasət və onun əsas istiqamətləri, təhsil, elm və səhiyyə sahələrinin iqtisadiyyatı və idarə edilməsi, ev təsərrüfatı, mənzil-kommunal təsərrüfatı və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi məsələləri dərs vəsaitinin digər mövzularında şərh olunmuşdur.

Dərs vəsaitində iqtisadiyyatın qeyri-kommersiya sektoru və onun fəaliyyəti barədə məlumatlar da əks olunmuşdur. Müəllif sosial sahənin fəaliyyətini təmin edən resurs potensialının şərhi üçün də mövzu ayırmışdır.

"Sosial sahənin iqtisadiyyatı" fənninin tədrisi "İqtisadiyyat" ixtisası üzrə təhsil alan tələbələr tərəfindən digər fənlərin mənimsənilməsi üçün elmi-nəzəri biliklərlə zəngindir. Bu baxımdan H.S.Şamilova tərəfindən belə bir dərs vəsaitinin hazırlanması zamanı gələcək iqtisadçı kadrların bu sahədə zəngin biliklərə yiyələnməsinin yüksək keyfiyyətinin təmin edilməsi hədəf alınmışdır.

Dərs vəsaiti "İqtisadiyyat" ixtisası üzrə müvafiq tədrisi yerinə yetirən müəllimlər və həmin ixtisas üzrə təhsil alan tələbələr, həmçinin sosial problemlərin, sosial sahənin fəaliyyətinin araşdırılması ilə məşğul olan tədqiqatçılar üçün nəzərdə tutulmuşdur.

**P.Ə.Həsənova,**
**BDU-nun "İqtisadiyyat və idarəetmə" kafedrasının professoru, iqtisad elmləri doktoru**

# "Excelsior Hotel & Spa Baku" otelində yay mövsümünün açılış mərasimi keçirilib



"Excelsior Hotel & Spa Baku" hotelində "AtaBank" ASC-nin dəstəyi ilə ənənəvi "Summer Party" (yay partisi) keçirilib. Açılış mərasimində "AtaHolding" şirkətlər qrupunun tərəfdaşları, şirkət rəhbərləri, tanınmış ictimaiyyət xadimləri, ziyalılar, aparıcı KİV nümayəndələri iştirak ediblər. Açılış mərasimində jurnalistlərə müsahibə verən "AtaHolding" Korporativ kommunikasiyalar şöbəsinin rəisi Dilara Zamanova bildirib ki, hər il olduğu kimi, bu il də "Excelsior Hotel & Spa Baku" hoteli öz ənənəsinə sadiq qalaraq açılış mərasimini açıq hovuzun ətrafında təşkil edib. Bildirib ki, paytaxtımıza gələn çoxsaylı qonaqlar və şəhər sakinləri şəhərdən kənara çıxmadan qızmar yay günlərində gözəl şəraitdə dincələ, günəş şüaları qəbul edə, suyun yanında axşam mehindən həzz ala biləcəklər. Ümumiyyətlə, hotel şəhərin mərkəzində olsa da, bu məkan gözəl, mənzərəli, sakit bir yerdir və avtomobillərin saxlanılması üçün ödənişsiz böyük dayanacağa malikdir. Burada bol əyləncə ilə dolu gözəl günlər keçirmək olar. Hovuz ətrafında olan "Green House" restoranı, kafe və bar qonaqlara türk və milli mətbəxin zəngin menyusu ilə xidmət göstərir. Mərasimdə loteraya oyunu keçirilib. Mərasim iştirakçıları "Excelsior Hotel & Spa Baku" hotelinə hədiyyə paketləri, Türk Hava Yollarının İstanbula təşkil etdiyi biznes klass biletləri, o cümlədən qiymətli hədiyyələr qazanıblar. Bundan başqa, mərasim iştirakçıları hotel tərəfindən təşkil olunmuş moda sərgisi ilə də tanış olublar.

«Lider Televiziyası və Radio Azərbaycan» MMC-nin Xəbərlər departamentinin ictimai-siyasi şöbəsinin müxbiri İbrahimova Zümrüd Oqtay qızının Lider tv-yə məxsus iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**ELAN**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500